◆ Mənsur Göyçəli

## Üstə

Qara bir geyimli qadın görsəniz,
Söyləyin, gəlməsin ölümün üstə.
Ondan yetim qalan yaralı eşqim,
Hələ də can verir qolumun üstə.

Büründük həyatda qara bir dona,
Sevgimiz beləcə yetişdi sona,
Onu bir bəy atmış, məni bir sona,
Düşmüşük tən yarı zülümün üstə.

Qəmim sevincimin ötdü sayını,
Axtarıb tapmadım ömür tayımı,
Yaradan verəndə sevgi payımı,
Bilmirəm kim çıxdı yolumun üstə?

Hərə öz işində, öz dünyasında
Aparır, gətirir öz mayasında,
Mənsə xam xəyalın çarpayısında,
Qıvrılıb yatıram külümün üstə.

*Mənsur*'um, talemdə neçə yol azı,
Vüsala həsrətlə qaldım tamarzı,
Ötürdüm baharı, verdim payızı,
Qönçədə saralmış gülümün üstə.